MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLIX buraxılış, Bakı, 2026
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLIX выпуск, Баку, 2026
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLIX edition, Baku, 2026

**UOT 075**
**ORCID: 0009-0001-0317-2743**
**DOI: 10.52094/YALC1424**

**Fidan Eldarova Azər qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Müəllim**
eldarovafidan@gmail.com

# RƏNGKARLIQ ƏSƏRLƏRİNDƏ MEMARLIQ ELEMENTLƏRİNİN BƏDİİ HƏLLİ

**Xülasə:** Bu məqalədə rəngkarlıq əsərlərində təsvir olunan memarlıq elementlərinin bədii həlli, dövrlərə görə fərqli və oxşar tərəfləri, həmçinin rəssamların yaradıcılıq xüsusiyyətlərinə uyğun olaraq elementlərin simvolik mənası araşdırılır. İntibah dövründən klassizmə, həmçinin rus və Azərbaycan incəsənətində rəssamların tablolarında təsvir edilən memarlıq elementlərinin bədii həllinə nəzər salınıb. Hər bir əsər sənətşünas təhlilinə əsaslanaraq qeyd edilib.

**Açar sözlər:** rəngkarlıq, memarlıq, element, struktur, dövr, təhlil.

**Giriş:** Rəngkarlıq sənətində diqqət daha çox insan obrazı üzərində cəmlənsə də, bununla yanaşı müxtəlif memarlıq elementlərinə də xüsusi yer verilir. Rəsm əsərləri üzərində təsvir olunan bu memarlıq elemetləri tablonun sadəcə məkan fonunu oynamır, həmçinin onun ideyası, kompozisiyasını və emosional strukturunu təyin edir. Memarlıq abidələri, sütunlar, tağlar, küçələr, meydanlar, interyerlər, məscidlər, karvansaraylar, qalalar və yaxud şəhər mənzərəsində əks olunan müxtəlif tikililər fərqli dövrlərə aid bədii funksiyalar daşıyır. Bu elementlər bəzən riyazi nizamı ifadə edir, bəzən də dövrün tarixi, məişəti və mədəniyyəti barədə məlumat verir. Bir çox hallarda isə memarlıq motivləri əsərin əsas məna yükünün daşıyıcısı rolunda çıxış edir. Təsvir olunan belə tabloların hər birində səssiz memarlıq abidələrinin yaratdığı təəssürat bir çox hallarda insan fiqurlarının önünə keçir. Rəngkarlıqda memarlıq obrazı həm real, həm də simvolik məna daşıyıcısı hesab olunur. Bu elementlər vasitəsi ilə rəssamlar dövrün sosial mühitini, fəlsəfi düşüncəsini və insanın məkanla münasibətini də ifadə edir. Rəngkarlıq sənətinin intibah dövründən başlayaraq

yüksək inkişafa doğru irəlilədiyini nəzərə alsaq, hər bir dövrdə təsvir edilən əsərlərin fərqlərini də qeyd etmək mümkündür.

**Əsas hissə:** XV əsrdən başlayaraq monumental əsərlər yaradan rəssamlar artıq çoxsujetli kompozisiyalar təsvir etməyə başladılar. Bu illər ərzində, yəni intibah dövründə təsviri sənətdə memarlıq elmi və riyazi əsaslarla işlənməyə başladı. Yüksək intibahda perspektiv sisteminin inkişaf etməsi memarlıq elementlərinin daha dəqiq işlənməsi və kompozisiyanın əsas qurucu strukturuna çevrilməsinə də əsas zəmin yaratdı.

Memarlıq elementlərinin monumental təsvir edildiyi rəngkarlıq işlərindən biri yüksək intibah rəssamı Rafael Santiyə (1483-1520) məxsudur. Onun "Afina məktəbi" tablosu memarlıq motivinin vurğulandığı ən mükəmmək rəsm əsəri hesab olunur. "Afin məktəbi" tablosu XVI əsrin əvvəllərində (1509-1511) yaradılıb. Əsər antik yunan fəsəfəsinə həsr olunub. Bu dövr Avropa ölkələrində humanism ideyaları ön plana çıxdığı üçün antik mədəniyyətə maraq da yenidən dirçəlmişdir. Fırça ustaları insanı kainatın mərkəzi kimi təqdim edirdilər. Bu əsər Vatikan sarayında divar rəsmi kimi sifariş edilərək Papa II Yuliusun kitabxanasını bəzəmək məqsədi daşıyırdı.

Əsərin təsvir xüsusiyyətlərinə nəzər salsaq görərik ki, mərkəzdə Platon və Aristotel başda olmaqla müxtəlif filosoflar və elm insanları göstərilib. Tablonun əsas ideyası və məqsədi isə insan düşüncəsinin ön plana çəkilərək ziyalı xadimlərin bilik harmoniyasını göstərmək idi.

"Afina məktəbi" tablosunun əsas daşıyıcı struktur elementi məhz abidənin yüksək peşəkarlıqla göstərilməsidir. Dahi rəssam bu yaradıcılıq nümunəsində antik Roma memarlığına müraciət edərək idealizə olunmuş formalarla klassik məkan yaratmağa çalışmışdır.



**“Afina məktəbi” (1509-1511), freska, Vatikan, Apostol sarayı**

Rafael Santi tablosundakı tikilini məktəb kimi deyil, reallıqdan kənar ideya məkanı kimi göstərmişdir. Yəni əsas fəlsəfi mənası elm, fəlsəfə, incəsənət və dövrün tələblərini göstərməkdən ibarət idi. Freskada təsvir edilən məktəbin divarlarındakı heykəllər, naxışların incəliyi, rəng tonlarının düzgün seçilməsi əsərin mükəmməlliyindən xəbər verir desək, heç də yanılmarıq.

Heykəllərin tabloda incəliklə və ustalıqla işlənilməsi sanki həm məktəbin, həm də dövrün səssiz izləyicisi olduğunu tamaşaçılara sübut edən əsas amildir.

İntibah dövründən sonra yaranan, öz möhtəşəmliyi və fərqli üslub xüsusiyyətləri ilə seçilən barokko dövrünə nəzər saldıqda isə burada memarlıq elementlərini statik qruluş kimi deyil, əsərin məzmununu ifadə edən səhnə kimi göstərildiyini görmək mümkündür. Dövrün əsas xüsusiyyəti olan teatrallıq, işıq və kölgə kontrastlarının fərqli istifadəsi rəngkarlıq əsərlərində təsvir edilən memarlıq elementlərində də özünü göstərir.



**“Apostol Matveyin çağırışı” (1599-1600), kətan, yağlıboya, 340x322 cm**

Bu dövrün əsərləri sırasında memarlıq elementlərinin təsvir olunduğu rəngkarlıq nümunələrdən biri Meriçi de Karavacconun (1571-1610) “Apostol Matveyin çağırışı” (1599-1600) əsəridir. Bu əsərdə əsas mərkəzdə memarlıq elementi kimi təsvir edilən pəncərə müqəddəslərin əyləşdiyi otağı ön plana çıxaran yeganə elementdir deyə bilərik. Dövrün əsas xüsusiyyətinə görə əsərlər daha çox tünd rənglərlə və teatral təsvir edildiyi üçün, bu rəsm əsərində də

memarlıq elementi ön planda deyil fonu tamamlayan bir obyekt kimi göstərilib. Karavacconun rəngkarlıq sənətinə gətirdiyi yeni işıq və kölgə texnikası – kyaroskuro "Apostol Matveyin çağırışı" tablosunda da yüksək məharətlə istifadə edilib. Dini mövzulu tabloda hadisənin gündəlik interyer mühitində baş verdiyi ön plandadır. Memarlıq elementləri kimi göstərilən masa, divarlar və stullar kompozisiyanı bölərək pəncərədən daxil olan işıqla birgə əsəri tamamlayır.

Barokko dövrünün teatrallığından və hərəkətliliyindən sonra yaranan impressionism cərəyanında isə adından da göründüyü kimi, əsərlərdə təsvir edilən memarlıq elementləri sabit formanı deyil, işıq, kölgə və rənglərlə birgə maraqlı təəsüratı ön plana çıxarır. İmpressionizm cərəyanının məşhur nümayəndələrindən olan Kamil Pissaronun (1830-1903) "Monmartr bulvarı" (1897) silsilə tablolarına nəzər salsaq görərik ki, bu əsərlər Parisin gündəlik həyatını və şəhərin dinamikasını göstərir. Günün müxtəlif saatlarında yaradılan bu rəngkarlıq işlərinin hər birində memarlıq elementləri fərqli mənalara malikliyi ilə seçilir. Məsələn, "Monmartr bulvarı" əsərində memarlıq ön planda göstərilib. Binaların damlarının əlvan rənglərlə işlənməsi, çoxsaylı müxtəlif tikiliklərdən istifadə edilməsi tablonu izləyənlər üçün o dövrün memarlıq xüsusiyyətlərindən xəbər verir.  1897-ci ilə aid olan bu tablodakı binaların hər biri klassizm üslubunda inşa olunub. Binalar küçə boyunca ritmik formada düzülüb, Əsərin perspektivası isə elə qurulub ki, binaların düzülüşündən şəhərin böyüklüyü və sonsuzluğu ön plana çıxır.



**"Monmartr bulvarı" (1897), kətan, yağlı boya, 64x61 sm**

1880-ci ildən sonra impressionizmdən sonrakı mərhələdə, yəni post-impressionizmdə artıq memarlıq elementləri emosional məkanı vurğulayan amil kimi göstərilirdi. Dövrün ən məşhur rəssamı Vinsent Van Qoqun (1853-1890) "Arlda gecə kafesi" əsərinə nəzər salaq. Əsərdə kafe binası kompozisiyanın mərkəzi hissəsində yerləşdirilib. Həmçinin perspektivanın dərinliyi də məkanın genişliyini göstərən amillərdəndir. Tablonun canlı rənglərlə təsvir edilərək işıqlandırmadan istifadə edilməsi isə memarlığın emosionallığını artırır. Van Qoqun "Arlda gecə kafesi" əsəri ilə yüksək intibah dövrünün dahi rəssamı Leonardo da Vinçinin "Sonuncu şam yeməyi" tablosunun bənzədiyini də görə bilərik. Çünki həm Leonardo da Vinçi, həm də Vinsent Van Qoq tablolarının hər ikisində mərkəzi hissədə İsa və on iki həvarisinin təsvirinə yer verib. Memarlıq həlli baxımından da onların birgə məkanda söhbət edərkən göstərilməsi əsərlərin bənzərliyini artıran əsas məqamlardandır deyə bilərik. Lakin fərqli tərəflərinə nəzər salsaq görərik ki, Vinsent Van Qoq real məkanı təsvir etməsinə baxmayaraq, Leonardo da Vinçi dini sujetləri ön plana çəkərək məkanı fon olaraq istifadə etmişdi.



**"Arlda gecə kafesi" (1888), kətan, yağlı boya, 81x65 sm**

Rus təsviri sənətində də rəssamların yaradıcılıqğında memarlıq motivlərinə geniş yer verilib. Mövzu dərinliyi, texnika müxtəlifliyi və rəng kontrastlarına görə rus rəssamlarının əsərlərində göstərilən memarlıq elementləri məkanın əsas elementinə çevrilir. İsaak Levitan, Vasili Surikov, Andrey Rublyov və bu kimi digər rəssamların əsərlərinə nəzər salsaq görərik ki, onların rəngkarlıq işlərində memarlıq milli ruhun, tarixin daşıcıyısı rolunu oynayır.



**“Əbədi sülh üzərindən” (1894), kətan, yağlı boya, 150x206 sm**

Məsələn, İsaak Levitanın (1860-1900) “Əbədi sülh üzərindən” (1894) əsərində memarlıq nümunəsi olan provaslav kilsəsi tablonun mərkəzində göstərilib. Bu onu sübut edir ki, memarlıq landşaftla vəhdət təşkil edir, kilsə və monastrlar əsas motiv kimi çıxış edir.

Digər bir nümunə olaraq Vasili Surikovun (1848-1916) 1881-ci ildə çəkdiyi “Atıcıların edam səhəri” əsərinə baxaq. Tarixi mövzuya həsr olunan rəngkarlıq işində mərkəzi hissədə məhkum olunmuşlar təsvir edilsə də, arxa fonda Kreml divarlarının və “Müqəddəs Vasili” kilsəsinin göstərilməsi tarixin və dövlət gücünün simvolu kimi verilib. Əsərə diqqətlə nəzər salsaq görərik ki, insanlarla memarlıq arasında güclü kontrast yaradılıb.



**“Atıcıların edam səhəri” (1881), kətan, yağlı boya, 218x379 sm**

Azərbaycan təsviri sənətindən danışdıqda isə, memarlığın qədim köklərə malik olduğunu və rəngkarlıq əsərlərində onların təsvir edilməsinin birbaşa tarixin göstəricisi olduğunu demək mümkündür. Qala şəhərləri, məscidlər, karvansaraylar, saray kompleksləri rəngkarlıq sənətinin yaranması və inkişafı üçün əsas zəmin rolunu oynayıb. Xüsusilə qədim İçərişəhərin görüntüsü



**Tahir Salahovun “Odlar Yurdu”, kətan, yağlı boya, 225×580 sm**

Azərbaycan rəngkarlığında ən çox işlənən mövzular sırasında yer alır. Bu gün də həmin tablolara nəzər saldıqda tarixin ruhunu hiss etmək mümkündür.

Azərbaycan rəngkarlığında bir çox rəssamların yaradıcılığında memarlıq motivlərinə rast gələ bilərik. Azərbaycan rəssamlıq məktəbinin ən görkəmli nümayəndələri Səttar Bəhlulzadə (1909-1974), Maral Rəhmanzadə (1916-2008), Tahir Salahov (1928-2021), Mikayıl Abdullayev (1921-2002) və Tofiq Cavadov (1925-1963) yaradıcılığında memarlıq motivlərinə geniş yer verilərək, milli ruh və tarix qorunub saxlanılmışdır. Beləliklə, Səttar Bəhlulzadənin "Bakının qədim mənzərəsi", Maral Rəhmanzadənin "Bakı silsiləsi" və "Neft daşları", Mikayıl Abdullayevin "Bakı mənzərəsi", "İçərişəhər" və "Şəhər günortası", Tahir Salahovun "Odlar Yurdu" triptixi, "Nardaran kəndi", Tofiq Cavadovun isə "Bakı küçələri" və "Köhnə şəhər" tabloları buna misaldır. Bu əsərlərin hər birində memarlığın təsvir edilməsi milli ruhun göstəricisi olmaqla yanaşı, dövrün şəhər mədəniyyətini, tarixini sübut edir. Tahir Salahov tablolarının real təsviri və canlı rənglərdən istifadəsi isə tarixi ruhun ən mühüm göstəricisi kimi çıxış edir.

**Nəticə:** Bütün dövrlərə nəzər saldıqda belə nəticəyə gəlmək olur ki, memarlıq incəsənətin ən gözəl sahələrindən biridir və rəngkarlıq əsərlərində təsvir edilməsi də bütün incəsənət sahələrinin vəhdət təşkil etməsini göstərir. Qərbi Avropa rəngkarlığında memarlıq elementlərinin təsviri daha çox rəssamın düşüncəsi, ideyası və dövrün tələbi ilə bağlı olmuşdusa, rus təsviri sənətində isə tarixin və milli ruhun ifadəsi kimi göstərilib. Azərbaycan rəngkarlığında isə memarlıq motivlərinin çoxluq təşkil etməsi hələ də yaşayan tarixin, mədəni kimliyin və tarixi inkişaf yolunun gösticisi kimi çıxış edir. Hər bir rəngkarlıq əsərində memarlıq səssiz, lakin danışan obraz və ya tarix kimi çıxış edir. Tablonun estetikliyini artırmaqla yanaşı, milli kimliyi, dövrün xüsusiyyətlərini və şəhər mədəniyyətini də izləyicilərə təqdim edir.

## Ədəbiyyat siyahısı

1. Tanımadığımız Tahir Salahov. *www.kaspi.az. 25 mart 2015 tarixində* orijinalından *arxivləşdirilib*. İstifadə tarixi: 7 dekabr 2015.
2. Tahir Salahov: Biblioqrafiya (PDF). Bakı: Azərbaycan Milli Kitabxanası. 2013. 320. ISBN 978-9952-460-30-8. 30 mart 2022 tarixində arxivləşdirilib (PDF). İstifadə tarixi: 10 fevral 2018.
3. The Most Famous Paintings of the World, 17
4. The complete paintings of Caravaggio, 42
5. Суриков Василий (1848-1916) Утро стрелецкой казни 1881

6. Исаак Ильич Левитан – Лучшие картины, пейзажи – “У омута”, 1892. *isaak-levitan.ru*. Archived *from the original on 9 April 2012*. Retrieved 31 August 2019.

7. *Государственная Третьяковская галерея -каталог собрания. Vol. 4: Живопись второй половины XIX века, book 1,* А-*М. Moscow: Красная площадь. 2001. pp.* 360–*361.* ISBN 5-900743-56-X

**Fidan Azar gizi Eldarova**

## ARTISTIC SOLUTION OF ARCHITECTURAL ELEMENTS IN PAINTINGS

**Summary:** This article examines the artistic solution of architectural elements depicted in paintings, their differences and similarities according to periods, as well as the symbolic meaning of the elements in accordance with the creative characteristics of the artists. The artistic solution of architectural elements depicted in paintings by artists from the Renaissance to classicism, as well as in Russian and Azerbaijani art, is examined. Each work is noted based on an art critic's analysis.

**Key words:** painting, architecture, element, structure, period, analysis.

**Фидан Азер гызы Эльдарова**

## ХУДОЖЕСТВЕННОЕ РЕШЕНИЕ АРХИТЕКТУРНЫХ ЭЛЕМЕНТОВ В ЖИВОПИСИ

**Резюме:** В данной статье рассматривается художественное решение архитектурных элементов, изображенных в живописи, их различия и сходства в зависимости от периодов, а также символическое значение элементов в соответствии с творческими особенностями художников. Анализируется художественное решение архитектурных элементов, изображенных в живописи художников от эпохи Возрождения до классицизма, а также в русском и азербайджанском искусстве. Каждая работа отмечена на основе анализа искусствоведа.

**Ключевые слова:** живопись, архитектура, элемент, структура, период, анализ

**Məqalənin redaksiyaya daxilolma tarixi: 21.04.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 30.04.2026**